**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində bələdiyyə üzvlüyünə namizəd Müslüm Osman oğlu Məmmədov və digərlərinin 6 yanvar 2010-cu il tarixli 552 saylı, bələdiyyə üzvlüyünə namizəd Qəhrəman Dəmir oğlu Verdiyevin 08 yanvar 2010-cu il tarixli 629 saylı, bələdiyyə üzvlüyünə namizəd Fərman Nurəli oğlu Rəhimovun 08 yanvar 2010-cu il tarixli 637 saylı müraciətlərinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

# Q Ə R A R I

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar bələdiyyə üzvlüyünə namizəd Müslüm Osman oğlu Məmmədov və digərləri 2010-cu il yanvarın 6-da, bələdiyyə üzvlüyünə namizəd Qəhrəman Dəmir oğlu Verdiyevin 2010-cu il yanvarın 8-də, bələdiyyə üzvlüyünə namizəd Fərman Nurəli oğlu Rəhimovun 2010-cu il yanvarın 8-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək bir sıra seçki dairələrinin ərazilərində seçki prosesi zamanı bəzi qanun pozuntularının baş verməsini bildirmiş və qanunla müəyyən edilmiş tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri tərəfindən nəzərdən keçirilərək bu barədə müvafiq rəylər verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Daxil olmuş müraciətlər nəzərdən keçirilmiş və onların verilmə tarixindən müəyyən edilmişdir ki, şikayətlər seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvləri şikayətlərin geri qaytarılması barədə rəylər vermişlər.

Belə ki, yuxarıda göstərilən Təlimatın 7.1-ci bəndinə əsasən seçki komissiyaları tərəfindən şikayət qeydə alındıqdan və baxılması üçün ekspertə təqdim edildikdən sonra ekspert həmin şikayəti ilkin olaraq nəzərdən keçirir. Bu zaman ekspert şikayətin Seçki Məcəlləsi və bu Təlimatla müəyyən edilmiş qaydaların pozulması ilə daxil olduğunu aşkar etdikdə, bu barədə qrup koordinatorunu məlumatlandırmaqla, şikayətin onu təqdim edən şəxsə geri göndərilməsinə dair rəy verməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqından Təlimat"ın 4.1.2-ci bəndinə əsasən seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər.

Ona görə də iddia edilən qanun pozuntularından qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə şikayət verilmədiyindən, müraciətlər mahiyyəti üzrə araşdırılmadan geri göndərilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1.1-ci, 4.1.2-ci və 7.1-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. Bələdiyyə üzvlüyünə namizəd Müslüm Osman oğlu Məmmədov və digərlərinin 06 yanvar 2010-cu il tarixli 552 saylı, bələdiyyə üzvlüyünə namizəd Qəhrəman Dəmir oğlu Verdiyevin 08 yanvar 2010-cu il tarixli 629 saylı, bələdiyyə üzvlüyünə namizəd Fərman

Nurəli oğlu Rəhimovun 08 yanvar 2010-cu il tarixli 637 saylı müraciətləri qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürüldüyündən ərizəçilərə geri göndərilsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Nizami Nadirov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Almas Qəhramanlı |
| | Oktay Hümbətli |